*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 6 sentyabr 2014-cü il | № 68 (1885) | Qiyməti 25 qəpik

# Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

* * *

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 3-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

* * *

Sentyabrın 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Bu səfərin ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyi bildirildi və münasibətlərimizin bundan sonra da daim yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

* * *

Sentyabrın 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Hörmətli cənab Prezident, əziz qardaşım!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Fürsətdən istifadə edərək, prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm. Bu qələbə bir daha onu göstərdi ki, son illər ərzində gördüyünüz işlər türk xalqı tərəfindən yüksək qiymətləndirilir.

Biz çox şadıq ki, andiçmə mərasimindən bir neçə gün sonra Siz Azərbaycana rəsmi səfər edirsiniz. Bu, bir daha onu göstərir ki, Türkiyə-Azərbaycan əlaqələri dostluq, qardaşlıq əlaqələridir və bu əlaqələr ən yüksək pillədədir.



Bu gün təkbətək görüşümüzdə əlaqələrimizin müxtəlif istiqamətlərini müzakirə etdik. Həm ikitərəfli, həm beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Bir daha görürük ki, bizim birliyimiz gündən-günə güclənir. Bütün məsələlərlə bağlı bizim fikrimiz eynidir və bir amalımız var ki, biz Türkiyə-Azərbaycan dostluq-qardaşlıq əlaqələrini uğurla inkişaf etdirək. Əminəm ki, bu səfər bu istiqamətdə atılan önəmli addım olacaqdır.

Bir daha xoş gəlmisiniz!

* * *

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi:

- Çox dəyərli qardaşım, hörmətli heyət üzvləri!

Sizləri avqustun 10-da keçirilmiş seçkilərdən sonra etdiyim ilk rəsmi səfərimdə səmimi qəlbdən öz adımdan və heyətim adından salamlayıram.

Artıq Sizin də dediyiniz kimi, bu səfərlər qarşılıqlı olaraq ənənə halı alıb. Bunlar da bir-birimizə məhəbbətimizin nə qədər güclü olduğunu göstərir.

Bu gün təkbətək görüşümüzdə xüsusilə Türkiyə-Azərbaycan əlaqələrini geniş şəkildə dəyərləndirmək imkanımız oldu. Burada bütün sahələrlə bağlı müzakirələr apardıq, dəyərləndirdik və heyətlərimizdəki yoldaşlarımızla da bunları inkişaf etdirməyə hazırıq. Təbii ki, Türkiyə-Azərbaycan münasibətləri bundan sonra daha fərqli bir şəkildə inkişaf etməlidir. Hazırda xüsusilə regionumuzdakı sıxıntılar birgə həmrəylik yolu ilə həll edəcəyimiz problemlərdir. Bu problemlərin - Türkiyə-Ermənistan probleminin, eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin həlli bir-biri ilə bağlı məsələdir. Əgər Ermənistan-Azərbaycan münaqişəsi həll olunarsa, Türkiyə ilə Ermənistan arasındakı problem də həllini tapacaq. Amma bu münaqişə həll edilmədiyi təqdirdə, Türkiyə ilə Ermənistan arasındakı vəziyyət indiki kimi davam edəcək. Bunu əvvəllər də həmişə ifadə etmişik. Bu, bir daha bilinsin deyə, yenə də söyləyirəm. Bu məsələlərdəki həmrəylimizi bundan sonrakı müddətdə də eyni qətiyyətlə davam etdirəcəyik. Bunun da xüsusilə bilinməsini istəyirəm.

Mən də çox təşəkkür edirəm.

* * *

Sentyabrın 3-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatla çıxış ediblər.

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

İlk növbədə, əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Biz Sizin səfərinizə çox böyük önəm veririk. Çox şadıq ki, andiçmə mərasimindən bir həftə keçməmiş Siz Azərbaycana, doğma Vətənə səfər edirsiniz. Fürsətdən istifadə edərək, bir daha Sizi prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə ürəkdən təbrik etmək və yeni uğurlar diləmək istəyirəm.

Bu gün biz ikitərəfli görüşümüzdə, eyni zamanda, heyətlərlə birgə görüşümüzdə ikitərəfli əlaqələrimizin bütün istiqamətlərini müzakirə etdik və bir daha əmin olduq ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Bizim əlaqələrimiz dostluq, qardaşlıq üzərində qurulubdur. Bu gün biz dostluğumuzun, qardaşlığımızın gözəl binasını bu möhkəm təməl üzərində inşa edirik.

Siyasi əlaqələr gündən-günə genişlənir. Biz beynəlxalq təşkilatlarda bir-birimizə daim dəstək veririk, xarici siyasətlə bağlı məsləhətləşmələr aparılır. Fürsətdən istifadə edərək, Türkiyə dövlətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində göstərdiyi səylərə görə və Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi üçün minnətdarlığımı bildirmək istəyirəm. Bu, bizim üçün çox önəmlidir. Türkiyə bütün dövrlərdə bu məsələ ilə bağlı öz siyasətini açıq şəkildə aparmışdır, daim Azərbaycanın yanında, haqqın, ədalətin, beynəlxalq hüququn yanında olmuşdur. Bu məsələ bu gün də müzakirə edildi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhdiddir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış əraziləri uzun illərdir ki, işğal altındadır, 20 faiz torpaqlarımız işğal altındadır, 1 milyondan çox qaçqın və məcburi köçkün var. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır, BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali qurumu bu münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və münaqişə hələ ki, öz həllini tapmayıb. Ermənistan-Azərbaycan münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Əminəm ki, belə də olacaq.

Eyni zamanda, Azərbaycan da bütün beynəlxalq qurumlarda daim Türkiyənin yanındadır. Bu gün, eyni zamanda, biz gələn il Ermənistanda qeyd ediləcək qondarma, sözdə "soyqırımı" ilə bağlı fikirlərimizi bölüşmüşük. Türkiyə ilə Azərbaycan həm xarici işlər nazirləri, həm səfirliklər səviyyəsində birgə fəaliyyət göstərir və göstərəcəklər. Diaspor təşkilatlarımız da, ictimai təşkilatlar da bu işlərdə birgə fəaliyyət göstərir və göstərəcəklər ki, biz dünyada qondarma "erməni soyqırımı"nın ifşası ilə bağlı öz işlərimizi əlaqələndirilmiş şəkildə aparaq. Ermənistan və dünya erməniliyi beynəlxalq ictimai rəyi çaşdırmaq, yalan üzərində tarix qurmaq istəyir, Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürür. Bunların heç bir tarixi əsası yoxdur. Bu, yalandır, böhtandır, iftiradır. Biz birgə səylərlə və bizə yaxın olan ölkələrlə birlikdə erməni yalanını bundan sonra da birgə ifşa edəcəyik.

Təbii ki, bu gün əməkdaşlığımızın müxtəlif istiqamətləri müzakirə edildi. Eyni zamanda, müdafiə sənayesi sahəsində mövcud olan əməkdaşlıq və onun perspektivləri müzakirə edildi. Burada da çox böyük potensial var. Hər zaman olduğu kimi, bizi birləşdirən enerji layihələri də müzakirə mövzusu oldu. İki il bundan əvvəl TANAP layihəsinə əziz qardaşımla imza atanda biz təxminən görürdük ki, bu, nəyə gətirib çıxaracaq. Bizim əsərimiz olan TANAP layihəsi bu gün dünyanın diqqətini cəlb edir. Artıq bizim qruplarımız, komandalarımız işə başlamışlar. Əminəm ki, bu tarixi layihə vaxtında icra ediləcəkdir. Ondan əvvəlki dövrlərdə də enerji məsələlərində biz daim bir yerdə idik. TANAP layihəsi, əlbəttə ki, daha da geniş beynəlxalq əməkdaşlıq tələb edən layihədir. Çünki burada iştirak edən ölkələrin, şirkətlərin sayı daha da çoxdur. Əminəm ki, biz bu layihəni də birgə səylərlə, müştərək iradə ilə uğurla icra edəcəyik.

Bu gün, eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Bu, bizim əlaqələrimizdə bir növ yenilikdir. Çünki məhz son illərdə həm Türkiyədən, həm Azərbaycandan qarşılıqlı qaydada investisiyalar böyük həcmdə qoyulur. Yaxın 5-6 ildə Türkiyəyə daha da böyük həcmdə Azərbaycan investisiyaları qoyulacaqdır, təxminən 17-20 milyard dollar arasındadır. Mən çox şadam ki, Türkiyə tərəfi bizim enerji layihələrimizdə öz payını artırır. "Şahdəniz"də öz payını artırıbdır, TANAP layihəsində böyük paya sahib olubdur. Bu da Azərbaycana yatırılan Türkiyə investisiyalarıdır. Eyni zamanda, bu layihələrin icrası ilə bağlı yeni gözəl imkanlar yaranır. Çünki bu böyük enerji layihələrinin əsas iştirakçıları Türkiyə və Azərbaycandır. Bu, belə də olmalıdır. Bu gün bizim birliyimiz artıq dünya çapında bir amildir və Türkiyə nə qədər güclü olsa, biz də o qədər özümüzü güclü hiss edəcəyik. Türkiyənin uğurları bizi çox sevindirir. Mən əminəm ki, bizim qardaşlıq əlaqələrimiz bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir.

Əziz qardaşım, Sizi bir daha ürəkdən salamlayıram və bütün türk xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram. Sağ olun.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Bəli, mən də çox təşəkkür edirəm. Avqustun 28-də inauqurasiya mərasimindən dərhal sonra, növbəti həftədə Azərbaycana etdiyim bu səfər çərçivəsində hörmətli qardaşım İlham Əliyev ilə istər təkbətək, istərsə də geniş tərkibdə görüşlərimizdə iqtisadi, ticari, mədəniyyət, təhsil və xarici siyasətlə əlaqədar məsələləri geniş şəkildə dəyərləndirmə imkanımız oldu. Təbii ki, xarici siyasətdə qardaşlığımızın zirvəsi olan ən mühüm məsələ Dağlıq Qarabağ münaqişəsidir. Bu məsələni yenə də hər zaman olduğu kimi, gündəliyimizin ən mühüm maddəsi olaraq müzakirə etdik, dəyərləndirdik. Bu məsələ ilə bağlı bundan sonra atacağımız addımları yenə aramızda eyni şəkildə həm təkbətək, həm geniş tərkibdə keçirilən görüşlərdə müzakirə etdik.

Təbii ki, müzakirə etdiyimiz digər mühüm həssas məsələ enerji məsələsidir. Əlbəttə ki, enerji sahəsi ilə əlaqədar olaraq TANAP çox böyük əhəmiyyət kəsb edir. Türkiyədən Avropaya gedəcək bu enerji xətti xüsusilə çox böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycanın enerji sektorunda gücünü ortaya qoyması baxımından xüsusilə çox mühümdür. Bunu bir sülh xətti olması baxımından çox mühüm bir sərmayə olaraq görürəm. Bunun üçün də bu həmrəyliyimizin artıq son mərhələsinə gəldik. İnşallah, bu ayın 20-də təməlqoyma mərasimi keçiriləcəkdir. Yüksək səviyyəli rəsmilərin də iştirak edəcəyi təməlqoyma mərasimi ilə birlikdə bu addım atılacaqdır. İnşallah, qurğular da işə başlayacaq. Türkiyədə və Azərbaycanda görülməli işlərin böyük hissəsi tamamlanıb. Bununla bərabər, artıq proses sürətlənərək, inşallah, davam edəcək. Təbii ki, bu həmrəyliyimizin ardından müvafiq sektorlarda - həm inşaat, həm boru sənayesi sahələrində canlanma meydana gələcək.

**(Ardı 2-ci səhifədə)**

## Draqan Vuyoviç:

## Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu siyasət nəticələrini verməkdədir

***Serbiyanın RTS telekanalının saytında Serbiya-Azərbaycan Ticarət Palatasının sədr müavini Draqan Vuyoviçin ölkələrimiz arasında əlaqələrə dair müsahibəsi yerləşdirilib.***

Azərbaycanda müşahidə olunan sürətli inkişaf prosesindən, iki ölkə arasında münasibətlərin hazırkı durumundan bəhs edən D.Vuyoviç vurğulayıb ki, tərəflər arasında strateji tərəfdaşlığın inkişafı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaradır. O deyib: "Azərbaycan Serbiya üçün önəmli bir ölkədir. Cari il hər iki ölkənin rəsmiləri arasında intensiv görüşlərin keçirilməsi, birgə layihələrin reallaşdırılması istiqamətində tədbirlərin görülməsi üçün uğurlu ildir. Bu ilin mayında Serbiyada sel fəlakəti baş verən zaman Azərbaycan humanitar yardım göndərən ilk ölkələrdən biri idi".

Ötən il Serbiya Prezidenti Tomislav Nikoliçin Azərbaycana səfərini xatırladan D.Vuyoviç bildirib ki, səfər çərçivəsində iki ölkə arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Bu gün Azərbaycan və Serbiya arasında beynəlxalq əməkdaşlıq çərçivəsində mövcud əlaqələr xristian və müsəlman ölkələri arasında dostluq və tərəfdaşlığın əsl nümunəsidir.

D.Vuyoviç müsahibəsində bildirib: "Azərbaycan geosiyasi baxımdan önəmli, lakin həssas bir bölgədə yerləşir. Bu ölkə hər hansı hərbi blokların bir parçası olmağı deyil, Qoşulmama Hərəkatının üzvü seçilməyi üstün tutub. Azərbaycan da Serbiya kimi müharibə ilə üzləşib, torpaqlarının 20 faizini itirib. Azərbaycan uzun illərdir Ermənistan ilə müharibə şəraitində yaşayır. Bununla belə, Cənubi Qafqaz iqtisadiyyatının 80 faizi sürətli iqtisadi inkişafın müşahidə olunduğu Azərbaycanın payına düşür. Dünya ölkələri maliyyə böhranından əziyyət çəkdiyi vaxtlarda belə Azərbaycanda tərəqqi müşahidə olunub. Son on ildə bu ölkədə bir milyondan artıq yeni iş yerləri açılıb, işsizliyin səviyyəsi xeyli aşağı düşüb. Bu göstəricilərə görə Azərbaycan hətta bəzi inkişaf etmiş ölkələri də üstələməkdədir. Təbii ki, bu inkişafda enerji sektorunun rolu böyükdür. Lakin Azərbaycan hökuməti üçün qeyri-neft sektorunun inkişaf etdirilməsi də prioritetdir".

Serbiya-Azərbaycan Ticarət Palatasının sədr müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticələrini verməkdədir. Bu siyasət cəmiyyətin hər bir üzvünün maraqlarını və rifahını təmin etməyə yönəlmiş mütərəqqi inkişaf modelinə əsaslanır. Ölkədə hökm sürən sabitlik və tərəqqi əhalinin hakimiyyətə olan inamını daha da artırır. Son illərdə Azərbaycanda həyata keçirilən ən önəmli layihələrdən biri olan "ASAN xidmət" barədə də fikirlərini bölüşən D.Vuyoviç vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan bu qurum dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edir.

Azərbaycanda qısa müddətdə müxtəlif sahələrdə əldə olunan uğurlardan danışan D.Vuyoviç bildirib ki, bu ölkənin "Azərspace-1" ilk telekommunikasiya peyki artıq orbitə buraxılıb. Bu, Azərbaycanda informasiya təhlükəsizliyinin təmin olunması, İKT sektorunun inkişafı və yeni yüksək texnologiyaların tətbiqi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda irimiqyaslı layihələrin həyata keçirildiyini deyən D.Vuyoviç Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələrdən bəhs edib. Vurğulayıb ki, Avropa ilə Asiyanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşması Böyük İpək Yolunun bərpası istiqamətində önəmli addımdır.

Azərbaycanın tolerant bir ölkə olduğunu deyən D.Vuyoviç diqqətə çatdırıb ki, müxtəlif xalqların və dinlərin nümayəndələri bu ölkədə sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycan ənənəvi olaraq multimilli, multimədəni bir ölkədir. Buna görə də paytaxt Bakıda hər il Ümumdünya Mədəniyyətlərarası Dialoq və Bakı Beynəlxalq Humanitar forumları kimi önəmli tədbirlərin keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan hökumətinin dəstəyi ilə Serbiyada həyata keçirilmiş humanitar layihələr, o cümlədən bu şəhərdə "Taşmaydan" parkının və "Bayraklı cami" məscid kompleksinin, Novi Sad və Novi Pazar şəhərlərində "Müqəddəs Petka" kilsəsinin və Mədəniyyət Mərkəzinin təmir və bərpası bu ölkədə multikulturalizm ənənələrinin mövcud olmasının bariz nümunəsidir.

**AzərTAc**

## Türkiyə hökuməti işğal altındakı Azərbaycan torpaqlarının azad olunması üçün səylərini davam etdirəcək

***Baş nazir Əhməd Davudoğlu Türkiyə Böyük Millət Məclisində yeni hökumətin fəaliyyət proqramı ilə bağlı çıxış edib.***

Baş nazir hökumətin xarici siyasət proqramında bir sıra məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələnin də əksini tapdığını bildirib. Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ regionu və ona bitişik rayonların azad edilməsi və Ermənistan ilə Azərbaycan arasında sülhün yaranması istiqamətində səylərin göstərilməsi AKP hökumətinin xarici siyasətində əsas istiqamət kimi göstərilib.

**AzərTAc**

# Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri

(Əvvəli 1-ci səhifədə)



Azərbaycanın xüsusilə son illərdəki dinamik inkişafı, Azərbaycandakı infrastrukturun inkişafı həqiqətən dünyanın da heyranlıqla izlədiyi bir prosesdir. Burada hörmətli qardaşımın və komandasının iradəsinin həqiqətən çox böyük rolu var. Mən də istər on bir illik Baş nazirliyim müddətində, istərsə də bundan sonra, həmin gündən bu günə Azərbaycanın haradan haraya gəldiyini görməkdən məmnunam. Çünki qardaş Azərbaycandakı bu inkişaf bizi də xüsusilə məmnun edir. Əminəm ki, qardaşların güc qazanması gələcəyə nikbin baxmağımıza da inamı artırır. Ticarət sahəsində atacağımız addımlarda da müəyyən etdiyimiz hədəflərimiz var. İnşallah, bu hədəflərə də çatacağıq. 15 milyard dollarlıq bir hədəfimiz var və inşallah, bu hədəfə də çatacağıq. Hər iki tərəfdə bu iradənin olduğunu görürük, bilirik. Bu məsələdə heç bir tərəddüdümüz yoxdur.

Təbii ki, indi buradan NATO zirvəsinə gedəcəyik. NATO zirvəsində də, xüsusilə bu zirvə ilə bağlı keçmişdən bu günədək keçirilən bütün tədbirlərdə Azərbaycana verilmiş sözlər vardır. Bu sözləri, təbii ki, orada da diqqətə çatdıracağıq. Bir qədər əvvəl digər ölkələrə verilən sözlər necə yerinə yetirilirsə, Azərbaycana verilən sözlərin də yerinə yetirilməsini orada da əlaqədar ölkələrdən istəyəcəyik. Bu, artıq bir ianə və bir lütf deyil, bir haqdır. Bunların yerinə yetirilməsi lazımdır. Bu məsələdə də qətiyyətimizi xüsusilə ifadə edəcəyik.

Azərbaycan ilə əməkdaşlıq edəcəyimiz bir çox sahələr vardır. Təbii ki, bu sahələrin sayı çoxdur. Bu məsələləri təkbətək və geniş tərkibdə görüşlərimizdə müzakirə etdik. Arzu edirəm ki, bu qardaşlığımız güclənərək həmrəylik içərisində gələcəyə doğru irəliləsin. Biz bunu bilirik - bir millət, iki dövlət. Bu, təbii ki, ulu öndərimizin bu günə bir mirasıdır. Bunun da eyni şəkildə davam etməsi lazımdır. Qoy bu birliyimiz bundan sonra da eyni qətiyyətlə davam etsin. Təşəkkür edirəm.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sentyabrın 3-də ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilib.

Dövlət başçıları ziyafətdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Bu gün çox əlamətdar bir gündür. Qardaş ölkənin Prezidenti, əziz qardaşım Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu səfərin tədbirlərində iştirak edən dostlar bu gün bizimlə bərabərdirlər. Artıq təkbətək, geniş tərkibdə görüşlərimizdə geniş fikir mübadiləsi aparılmışdır. Mətbuata bəyanatda da biz gördüyümüz, eyni zamanda, gələcəkdə görüləcək işlərlə bağlı öz sözlərimizi demişik.

Yekun olaraq bir daha demək istəyirəm ki, səfərin çox gözəl nəticələri vardır. Səfər çox uğurlu keçmişdir. Əminəm ki, bu rəsmi səfərin Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafına çox böyük dəstəyi olacaq, onlara böyük təkan verəcəkdir.

İndi isə biz çox xoş bir mərasimdə toplaşmışıq. Mənim əziz qardaşım Rəcəb Tayyib Ərdoğan 11 ildir ki, Türkiyəni inamla idarə edir. Biz Azərbaycanda Türkiyəni çox sevirik. Azərbaycanda elə bir insan tapılmaz ki, Türkiyəni öz doğma vətəni kimi sevməsin. Ona görə biz Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik.

Son 11 il ərzində Türkiyə çox böyük və şərəfli yol keçmişdir. Bunun da bir səbəbi, daha doğrusu, bir səbəbkarı var - mənim əziz qardaşım. Biz hamımız yaxşı bilirik ki, əziz qardaşım hakimiyyətə gələnə qədər Türkiyənin vəziyyəti o qədər də ürəkaçan deyildi. İqtisadi, siyasi böhran yaşanırdı, Türkiyə böyük borc içində idi, beynəlxalq maliyyə qurumları müəyyən dərəcədə öz iradəsini ortaya qoyurdular, diktə edirdilər. Rəcəb Tayyib Ərdoğanın sayəsində, onun fəaliyyəti nəticəsində iqtisadiyyatda bütün xoşagəlməz hallara son qoyulmuşdur və Türkiyə inamla inkişaf etməyə başlamışdır. Bu gün iqtisadi inkişaf baxımından Türkiyə ön sıralardadır. Bir neçə il bundan əvvəl dünyanı, Avropanı böhran bürümüşdü - iqtisadi, maliyyə böhranı. Bu böhran Türkiyəyə heç bir təsir etməmişdir. Çünki Türkiyə hökuməti xalq tərəfindən dəstəklənən düşünülmüş iqtisadi siyasət aparmışdır. Türkiyə bu illərdə "Böyük 20-lər"in üzvünə çevrilmişdir. Bu, tarixi nailiyyətdir. Türkiyə dünyanın aparıcı ölkələrini birləşdirən klubda ön sıralardadır. Bu da göydəndüşmə deyil. Bu, gündəlik fəal işlərin nəticəsidir. Bu gün Türkiyənin xarici siyasətlə bağlı uğurları göz qabağındadır. Türkiyə indi nəinki bölgədə, eyni zamanda, dünyada gedən proseslərə öz təsirini göstərir, dünya miqyasında bir gücə çevrilmişdir. Əlbəttə ki, bütün bu işlərin görülməsində birinci rolu mənim əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan və onun yardımçıları, komanda üzvləri oynamışlar.

Bu illərdə - 11 il ərzində biz bərabər çalışmışıq. Çalışmışıq ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı daha da möhkəmlənsin. Halbuki bu dostluq, qardaşlıq o qədər möhkəmdir ki, bunu daha da möhkəmləndirmək o qədər də asan məsələ deyil. Ancaq biz çalışmışıq ki, tarixdən, əcdadlarımızdan gələn sifariş, bizə verilən vəsiyyət əsasında ölkələrimizin arasındakı birliyi daha da möhkəmləndirək.

Son illərdə enerji, sərmayə, nəqliyyat layihələri və digər layihələr nəinki bizi bir-birimizə daha da sıx bağladı, eyni zamanda, bölgəyə çox müsbət təsir göstərdi. Çünki bizim bütün təşəbbüslərimiz - istər siyasi, istərsə də iqtisadi, enerji, nəqliyyat sahələrində təşəbbüslərimiz bölgəyə fayda gətirir. Bizimlə əməkdaşlıq edən ölkələr də bundan fayda götürür. Bizim siyasətimiz xoşniyyətlidir. Biz öz maraqlarımızı və əgər belə demək mümkündürsə, təsir dairəmizi əməkdaşlıq üzərində qururuq. Yəni, biz həmişə hazırıq ki, başqa ölkələrə kömək edək, öz yardım əlimizi uzadaq. Yəni, bu xoş niyyət bizi fərqləndirir. Son illər ərzində Türkiyə-Azərbaycan birliyi dünya miqyasında, ən azı regionda həlledici amilə çevrilmişdir. Əminəm ki, biz bundan sonra da Türkiyə və Azərbaycan xalqlarının iradəsi ilə hələ çox işlər görəcəyik. Dediyim bütün bu məsələlər son prezident seçkilərində türk xalqı tərəfindən bir daha qeyd edildi. Əziz qardaşıma verilən səslər görülən işlərə verilən səslərdir. Xalq hər şeyi görür. Bizdə atalar sözü var: "Xalqın gözü tərəzidir". Xalq hər şeyə düzgün qiymət verir. Türk xalqı düzgün qiymət vermişdir. Azərbaycan xalqı da düzgün qiymət vermişdir.

Bu gün bu tarixi səfərdə mən əziz qardaşımı Azərbaycan dövləti adından Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif etmişəm. Əziz qardaşım, istəyirəm indi bu yüksək mükafatı Sizə təqdim edim.

* * *

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı oxundu.

Azərbaycan Prezidenti İlham Əliyev "Heydər Əliyev" ordenini Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana təqdim etdi.

* * *

Sentyabrın 3-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri başa çatdı.

**AzərTAc-ın materialları əsasında**

## Akademik Ramiz Mehdiyev:

# "Heç kəs öz şəxsi marağını ölkənin milli mənafeyindən üstün tutmamalıdır"

***Bu gün beynəlxalq siyasi arenada söz sahibi olan müstəqil Azərbaycan dövləti həm də mühüm iqtisadi layihələrə qoşulmaqla regionda qüdrətli ölkəyə çevrilib. Son 10 ildən artıq müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız cəmiyyətin müxtəlif sahələrində yetərli uğurlara imza atıb. "Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır", - deyən ölkə başçısının yürütdüyü siyasi kursun nəticəsi olaraq Azərbaycanda vətəndaş hüquq və azadlıqlarının, demokratik dəyərlərin qorunması sahəsində böyük nailiyyətlər qazanılıb. Elə bu uğurları söz və mətbuat azadlığının inkişaf etdirilməsinə də şamil etməyə tam haqqımız çatır. Doğrudan da, bu gün Azərbaycanda azad mətbuatın prinsiplərinə tam riayət olunur. Müstəqil media qurumlarının inkişafına güclü dövlət dəstəyi vardır. Deyərdim ki, Azərbaycan bəlkə də dünyada nadir ölkələrdən biridir ki, burada azad söz sahiblərinin mənzil təminatına dövlət dəstək verir.***

Amma bir mətbuat nümayəndəsi olaraq məndə ikrah hissi doğuran məsələ bəzən həmkarlarımızın öz peşə borcundan sui-istifadə hallarına yol vermələridir. Dövlətin yaratdığı yüksək imkanlara baxmayaraq, bəzi üzdəniraq həmkarlarım hətta dövlətin, xalqın milli maraqlarının qorunmasının zərurət tələb etdiyi mövzularda düşmən dəyirmanına su tökməkdən çəkinmirlər. Müxtəlif illərdə azad mətbuatımızın hərbi mövzularda səriştəsiz, qeyri-peşəkar yazılarının şahidi olmuşuq. Bəzən qəzetlərin manşetində yer alan "Daha bir əsgərimiz şəhid oldu" ifadəsi ilə qarşılaşanda, məndə təəccüb yaranıb: görəsən bununla qələm əhli nə demək fikrindədir? Axı bu fikrin sətiraltı ifadəsində bir kinayə hiss edirsən. Dəfələrlə həm dövlət başçımız, həm də Müdafiə naziri bəyan edib ki, cəbhə xəttində hər bir itki bizi ağrıtmaya bilməz. Axı bu, adi insan itkisi deyil, bir Vətən döyüşçüsünün, sıradan bir əsgərimizin itkisidir. Çünki Vətənimizin əsas yükü o əsgərin çiyinlərində dayanır.

Bu il avqustun əvvəllərində düşmənlə təmas xəttində atəşkəsin ciddi şəkildə pozulması halları baş verdi. Mövqelərimizə düşmənin təxribat-kəşfiyyat qrupları hücum etdi. Bu hücumların qarşısı qəhrəman hərbçilərimiz tərəfindən qətiyyətlə alındı. Qarşı tərəfin daha artıq itki verdiyi bu əməliyyatlarda, təəssüf ki, Azərbaycan da öz vətənpərvər oğullarını itirdi. Əlbəttə, bunlar müharibənin öz qanunlarından irəli gələn bir haldır. Bəyənmədiyimiz işğalçı Ermənistanın müstəqil media qurumları öz itkiləri barədə susmağa üstünlük verdiyi halda, əksinə, bizdə ənənəvi hay-küy yarandı. Nə bilim, filan qədər şəhidimiz, yaralımız var, hərbi texnikalarımız burdan başqa rayona köçürülür, filan kənddə döyüşlər gedir və s. Hətta hərbi bölmələrin dislokasiya ünvanlarına qədər hər şeyi açıb-ağartdılar. Bax, buna nə ad verəsən? Ay həmkarım, axı sənin internet saytlarında yazdıqlarını milyonlarla adam oxuyur. Doğrusu, lap təəccüblü idi ki, bəzən şəhid olan bir əsgər haqqında yanlış məlumat verilirdi. İndi gəlin bir anlığa özümüzü həmin əsgərin doğmalarının yerində hiss edək. Görün o adamlar nələr çəkib, nə qədər həyəcanlı anlar yaşayıb? Özlüyümdə fikirləşirdim ki, mütləq cəmiyyətimizdə buna ciddi reaksiya veriləcək. Doğrudur, Müdafiə Nazirliyinin mətbuat xidməti səviyyəsində qərəzli informasiya yayan media qurumlarına ciddi ittihamlar səsləndi. Bir gün də "Qafqazinfo"dan xəbər tutdim ki, beş-altı saytın təmsilçisi vətənpərvərlik nümunəsi göstərərək hərbi mövzularda məlumatların yayılmasına qarşı öz aralarında monitorinq qrupu yaratmağı qərara alıb.

Hələ bir neçə ay bundan əvvəl, daha doğrusu, iyunun 25-də AzərTAc-a müsahibəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov da ordu və media münasibətlərinə toxunaraq jurnalistləri hərbi məlumatları yaymaqda ehtiyatlı olmağa, xalqın və dövlətin milli maraqlarını qorumağa səsləmişdi.

Ötən həftə isə dövlət səviyyəsində bu vacib məsələyə münasibət bildirildi. Avqustun 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında müvafiq dövlət qurumları və kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirildi. Əvvəlcə akademik Ramiz Mehdiyev çıxış edərək ölkə rəhbərliyi tərəfindən azad mətbuatın inkişaf etdirilməsi sahəsində həyata keçirilən məqsədyönlü fəaliyyətdən danışdı. O, narahatlıqla qeyd etdi ki, ölkənin bir çox informasiya vasitələri, qəzetlər, internet saytları yaydıqları məlumatlarda milli maraqlarımızı nəzərə almırlar.

Hörmətli akademik bir məsələni qeyd etdi ki, bu gün cəmiyyətin bütün sahələrində sərbəst bazar qanunları hökm sürür və KİV-lər də sahibkarlıq obyektləridir, onların istehsal etdiyi məhsul isə informasiyadır. Bazar iqtisadiyyatı şəraitində azad rəqabətin mövcudluğu tamamilə təqdirəlayiq haldır. Amma bu rəqabət qeyri-obyektiv, yoxlanılmamış, qərəzli, hətta ölkənin qanunlarına və milli maraqlarına zidd olan informasiyaların yayılmasına yönəldilə bilməz.

Prezident Administrasiyasının rəhbəri qətiyyətlə bildirdi ki, dövlətin qanunlarına məhəl qoymayan media qurumları barədə ciddi tədbirlər görüləcəkdir. "Bəzən müxalifətə yaxın QHT-lər və media öz xalqına, dövlətinə qarşı xəyanət yolu tutaraq düşmənlə işbirliyinə gedir və onun mövqeyini gücləndirməyə çalışır. Onlar belə satqınlıq, düşmənçilik yolundan geri çəkilməli və öz şəxsi maraqlarını ölkənin milli mənafeyindən üstün tutmamalıdırlar".

Əslində hər bir jurnalist öz yazısına görə məsuliyyət hissini başa düşərsə, sadəcə bir vətəndaş kimi Vətəninin, xalqının təəssübünü çəkərsə, onda narahatlığa dəyməz. Hörmətli həmkarlarım, gəlin elə bir əsgər kimi biz də Vətənimizi qorumağı düşünək.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***3 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən Tərtər rayonunun Göyarx kəndi yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***4 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri bu gecə Ağdam rayonunun Yusifcanlı kəndi yaxınlığında, Goranboy və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***5 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Şurabad, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri ərazisindəki mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcəklər

Sentyabrın 5-dən 13-dək Ekenas şəhərində (Finlandiya) böhranların idarə edilməsi üzrə çoxmillətli NOCO 2014 təlimi keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

*Ön xətdən reportaj*

# "Düşmən hər addımda Azərbaycan əsgərinin gücünü, qüvvəsini hiss edir"



Gecə-gündüz barıt qoxulu səngərlərdə dayanıb yurdumuza keşik çəkən cəsur zabit və əsgərlərlə görüşüm nə birinci, yəqin ki, nə də axırıncı dəfədir. Onlarla xeyli söhbət edib yaxından tanış olandan, ürək sözlərini dinləyəndən sonra sağollaşıb ayrıldıq. Onların hər birinin üz-gözündən igidlik və qəhrəmanlıq yağırdı. Təbiidir ki, belə cəsur əsgərləri olan Vətən torpağı erməni işğalçılarının tapdağı altında çox qalmayacaq. Günlərin birində xalqımız onlardan qələbə müjdəsi eşidəcək. Həmişəki kimi yurdumuzu qoruyan əsgərlərlə bu görüşüm də yaddaşımda dərin iz saldı. Buna görə də onlardan xoş təəssüratlarla ayrıldım.

Səhər ertədən yol yoldaşım olan kapitan Sahib Seyidovun məsləhəti ilə minaatanların yanına tələsirik. Zabit deyir ki, onlar həmişə mövqelərində ayıq-sayıq dayanırlar. Qarşı tərəfdən istənilən təxribat olduqda onlar düşmən hədəflərini vaxtında və dəqiq vururlar. Minaatanların yanındayıq. Şəxsi heyət döyüşə hazır vəziyyətdə öz mövqeyində ayıq-sayıq dayanmışdı. Qazmaların qarşısında bizi müddətdən artıq xidmət edən hərbi qulluqçu Faiq Abduləzimov qarşıladı. Bildirdi ki, ön xətdə - düşmənlə üz-üzə xidmət etmək çətin olduğu qədər də şərəflidir. Döyüş əmri verilən kimi erməni işğalçılarının mövqelərini dəqiq atəş zərbələri ilə məhv etməyə hazırıq. Düşmən mövqeləri silahlarımızın hədəfindədir. Şəxsi heyətin hazırlığı yüksək səviyyədə olduğu üçün həmişə hədəflər dəqiq vurulur. "Həyəcan" siqnalı verilən kimi bir göz qırpımında irəli atılıb əlverişli döyüş mövqeyi tuturuq.



Çavuş Faiq Abduləzimov söhbətinə davam edərək xidmətdə fərqlənən, yurdumuza ayıq-sayıq keşik çəkən əsgərlərdən Elvin İbrahimovun, Mahmud Qiyasovun, Eldar Cənnətəliyevin, Əbil Süleymanzadənin, Elxan Qarakişiyevin, Elşad İsmayılovun, Əkbər Talıbovun, Kamran Əliyevin, Şükür İsmayılovun, Nəbi Vəilizadənin, Cümşüd Nəcəfovun, Ağabala Məmmədovun və Xəqani Rəhimovun adlarını çəkdi. Bildirdi ki, bu əsgərlər, bir qayda olaraq, üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlirlər.

Sonra çavuş Faiq Abduləzimovla birlikdə mövqeləri gəzdik, əsgərlərlə görüşdük. Həmsöhbəti olduğum əsgərlərin hamısının üz-gözündən igidlik və qəhrəmanlıq yağırdı. Hiss edirəm ki, hər an düşmən üzərinə atılmağa və torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırdırlar.

- Əsgərlərimizin ürəyi Vətənə məhəbbət, düşmənə nifrət ruhunda döyünür, - deyə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Şamil İsmayıllı bildirdi. - Ön xətdə xidmət etmək məsuliyyətimizi daha da artırır. Marıqda dayanmış düşmən hər an atəşkəs rejimini poza bilər. Ona görə də həmişə, hər an mövqeyimizdə ayıq-sayıq dayanırıq. Erməni quldurları isə hər dəfə dəqiq zərbələrimizlə üzləşib geri çəkilir. Düşmən hər addımda Azərbaycan əsgərinin gücünü, qüdrətini hiss edir. Yaxşı bilir ki, qarşısında hazırlıqlı, torpağını azad etməyə qadir olan Azərbaycan əsgəri dayanıb. Qazandığımız uğurlarla arxayınlaşmırıq, əksinə, döyüş hazırlığımızı artırırıq. Çalışırıq ki, bütün sahələrdə düşməndən üstün olaq ki, döyüş meydanında onu asanlıqla məhv edək.



Budur, heyət nəfərləri yenə də çavuş Faiq Abduləzimovun əmrini yerinə yetirərək minaatan qurğusunu "döyüş" vəziyyətinə gətirib bacarıqlarını nümayiş etdirirlər. Heyət nəfərləri Şükür İsmayılov, Nəbi Vəlizadə, Cümşüd Nəcəfov tapşırıqları vaxtında və düzgün yerinə yetirirlər. Əsgər Mahmud Qiyasov da həmişəki kimi bussol qurğusunun arxasında tapşırıqları düzgün yerinə yetirməyə çalışır.

Əsgərlərimizi belə hazırlıqlı görəndə ürəyimiz dağa dönür. Əmin oluruq ki, istənilən vaxt düşmən onların dəqiq atəş zərbələri ilə məhv ediləcək.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOV:

# “Ən müasir silahı da idarə edən əsgərdir”

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu fikri hər bir Vətən əsgərinin devizinə çevrilmişdir. Həm də ordu quruculuğunda islahatlar getdiyi bir vaxtda böyük əhəmiyyətə malikdir.***



Bu sözlər mahiyyət etibarilə Silahlı Qüvvələrimizin daha da möhkəmləndirilməsi istəyinin təzahürü olmaqla, ordunun döyüş qabiliyyətinin əsgərin də döyüş hazırlığından bilavasitə asılı olduğunu təsdiqləyir. Bütün müasir silahlardan istifadə etməyi bacaran (həm də yüksək səviyyədə, peşəkarlıqla) əsgərlərdən təşkil edilən ordu, təbii ki, güclü olacaq. Cənubi Qafqazda ən güclü ordu olan Silahlı Qüvvələrimiz belə vətənpərvər əsgərlərimizin hesabına daha da formalaşacaq, döyüş qabiliyyətini daha da yüksəldəcək. Digər tərəfdən, bu fikir həm də orduda əsgər amilinə daha ciddi, daha həssas münasibət tələb edir. Belə bir tələbin mahiyyəti həm də hərbi təhsilin səviyyəsinin yüksəldilməsi zərurəti ilə bağlıdır; təbii ki, əsgərin gücü komandirin gücü deməkdir. Peşə hazırlığı arzuedilən səviyyədə olmayan zabit əsgərin döyüş hazırlığını Müdafiə nazirinin arzuladığı səviyyəyə çatdıra bilməyəcək. Əsgərin döyüş hazırlığının təkmilləşdirilməsi, müəyyən mənada, zabitlərin nəzəri-praktik hazırlığından asılı olduğu üçün hərbi təhsilin keyfiyyətinə diqqət artmalıdır. Yeni silahların istismar xüsusiyyətlərini tam mənimsəməyən zabitin tabeçiliyində olan əsgər bu silahlardan mükəmməl istifadə edə biləcəkmi? Təbii ki, yox.

Bu tezis, təbii ki, Silahlı Qüvvələrimizdə aparılan islahatların tərkib hissələrindən biri olacaq.

Hərbi xidmətə başlayanda ərazi bütövlüyümüzü, dövlətçiliyimizi qoruyacağına and içən, vəd verən, inandıran əsgərin Hərbi anda sədaqətini görmüşük, həmişə də görəcəyik. Azərbaycan əsgəri Hərbi anda heç zaman xilaf çıxmaz! Ermənistanın təxribat-diversiya qrupları iyulun 31-də qoşunların təmas xəttini keçmək istəyəndə təsdiqləndi ki, Azərbaycan əsgərlərinin ürəyi Vətənin bir parçasıdı. Onlar istifadələrində olan silahları yüksək səviyyədə idarə edir...

Müdafiə nazirinin bu fikri həm də tarixdən qaynaqlanır, tarixi reallığın təsdiqi kimi başa düşülür.

Tarixən bütün döyüşlər döyüşçünün (əsgərin) gücünə hesablanıb. Sərkərdələr döyüşü təşkil və idarə edib. Tarixin bütün dönəmlərində döyüşən, öldürən, ölən əsgər olub.

Müdafiə naziri döyüş bölgələrində əsgərlərlə görüşlərində bir vacib məsələyə də toxunub: əsgərin mənəvi hazırlığının yüksəldilməsi. Belə bir qlobal, həyati məsələnin gerçəkləşdirilməsi üçün nəzəri-elmi, tarixi məlumatlarla, fakt və hadisələrlə kifayətlənməyin yetərli olmadığını qeyd edən nazir vətənpərvərlik duyğularının daha da gücləndirilməsinin vacibliyini xatırladıb. Vətənsevərliyi arzulanan səviyyədə olmayan əsgərin əlində ən güclü, müasir silah da eibarsız ola bilər. Vətənsevərlik duyğularının tənzimlənməsində əsgərlərlə aparılan söhbətlər üçün Qarabağ döyüşləri də kifayət qədər məlumat verir. Onları öz məqamında xatırlamaq, xatırlatmaq, mövzunun izahında və şərhində təhlilə çəkmək mümkündür, bəlkə də vacibdir. Yadımdadır, 1993-cü ildə döyüşlər gedən vaxtlarda Tərtərdə səngər qazılırdı. Bir qol sümüyü göründü. Bunu yaranmış fasilədə tarixi mövzuda söhbət üçün fürsət bildik: Torpaqlarımız zaman-zaman düşmən hücumlarına məruz qalıb. Döyüşçülərimiz qılıncla bəd niyyətlilərin qolunu üzüb, boynunu vurub. Bax, torpaq belə qorunub. Səhərisi gün ağır döyüş olmuşdu. Döyüşçülərimiz düşməni iki strateji yüksəklikdən sıxışdırmışdı. Bu kimi faktlardan əsgərin mənəvi, psixoloji hazırlığı üçün istifadə edilməsi arzulanan nəticələr verə bilər. Müdafiə nazirindən epiqraf gətirdiyim fikir komandirlərin, zabitlərin vəzifə borcunun tərkib hissəsi olmalıdır...

Mustafa Kamal paşanın (Atatürkün) komandanlığı ilə istiqlal savaşında zabitlər də özünü Vətənin əsgəri hesab edirdi və əsgərlərlə bir sırada döyüşürdü. Şükrü paşanın vəsiyyətini xatırlayıram: "Düşmənlər sərhədlərimizi keçdikdən sonra ölsəm, məni dəfn etməyin. Qoy ətimi itlər yesin. Düşmən sərhədlərimizi keçmədən şəhid olsam, sabunum, kəfənim çantamdadır". Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsgərlərimizin Vətənə bu əqidə ilə xidmət etməsini arzulayır, tövsiyə edir, tələb edir. Bu əqidəyə malik olmayan əsgər ən müasir silahları idarə edə bilsə də gücsüzdür, şübhəsiz. Deməli, əsgərin döyüş hazırlığı mənəvi hazırlıq üzərində qurulmalıdır. Dayandığı səngərin adi torpaq olmadığını, Vətənin bir hissəsi olduğunu, Vətən olduğunu dərk edən əsgər döyüşdə, təbii ki, qələbə qazanmağa qadirdir.

Drımbon uğrunda döyüş gedirdi. Düşmən inadla müdafiə olunurdu. Sağ cinahda pulemyotla himayə atışı aparmağı komandir əsgər Səlim Həsənova tapşırmışdı. İyirmi yaşı vardı Səlimin. Altı-yeddi ayda çox döyüşlərdə olmuşdu. "Hərə bir cana borcludu. Ruhumuz kimi canımız da Vətən üçündü" - bu amalla döyüşmüşdü.

Səlim sağında-solunda kimsənin olmadığını hiss eləyəndə, barmağı tətikdə titrəmədi, tətikdən üzülmədi. Şəhid dostlarının ruhunun təsəllisinə tapındı, bir də ürəyini coşduran sevgiyə. Bu sevgi Vətən sevgisiydi...

...Döyüş başa çatanda komandir heyrətini, heyrətdən sıyrılan sevincini, qürrəsini gizlədə bilmədi. Sol qolundan yüngül yara almış döyüşçünü bağrına basdı. İnana bilmirdi ki, bu müddət ərzində o, düşmənin olduqca üstün qüvvələriylə tək döyüşüb. Mövqeni də qoruyub, cinahlarda atışanları da himayə eləyib. Onda yadıma 1914-cü il düşmüşdü. Türkiyə. Çanaqqala döyüşü:

Düşmənin hərbi dəniz qüvvələri komandanlığı müharibənin taleyini həll etmək və İstanbulu ələ keçirmək məqsədi ilə döyüşə əlavə hərbi qüvvələr göndərib. Düşmənin gəmisi boğaza yaxınlaşmaqdadı. Gəmi boğaza girsə, Anadolunu "diz çökdürərdi", İstanbulu işğal edə bilərdi. Topçuların hamısı şəhid olub. Seyid Onbaşıdan savayı. Seyid Onbaşı 267 kiloqramlıq mərmini kürəyinə aldı. Topa qoyub atəş açdı. Düşmən gəmisi məhv edildi. Boğazı tutmaq düşmənə nəsib olmadı. Seyid Onbaşıya bu gücü Vətən sevgisi vermişdi...

Mübariz İbrahimovun qəhrəmanlığı dünyanı heyrətləndirdi. Onu səngərdən çıxardıb düşmənin üstünə, düşmənin səngərinə aparan qüvvənin adı Vətən sevgisi olub, şübhəsiz...

Düşmənlərimiz yaxşı bilir ki, Ali Baş Komandanımız torpaqlarımızın azad edilməsi üçün əmr versə, hər bir əsgərimiz Seyid Onbaşı olacaq, Səlim Həsənov olacaq, Mübariz İbrahimov olacaq!..

Vətən sevgisinin məxsusi düsturu yoxdur. Hərə Vətəni duyumuna, dünyagörüşünə, təhsilinin səviyyəsinə müvafiq sevir. Hər halda, hamı Vətən məfhumunun ifadə elədiyi məzmunun mahiyyətini dərk edir. Obrazlı şəkildə desək, Vətəni qoruyanların əsas güvənci Vətən sevgisidir. Seyid Onbaşının, Səlim Həsənovun, Mübariz İbrahimovun Vətən sevgisi kimi. Müdafiə naziri əsgərlərimizdə məhz bu sevgini görmək istəyir...



**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# XXVI dərs

*(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

**Mövzu:** *IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.*

***İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.***

**1. IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.**

**2. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.**

**3. Xürrəmilər hərəkatının əhəmiyyəti.**

### *IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı*

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular. Ərəb ordularının fasiləsiz hücumlarına baxmayaraq, əhali onlara asanlıqla boyun əymədi, düşmənə ciddi müqavimət göstərərək, vergi verməkdən və islam dinini qəbul etməkdən imtina etdi. Yalnız 90 illik kəskin mübarizədən sonra xilafət orduları Azərbaycanın istilasını başa çatdıra bildilər. Ərəblər işğal etdikləri ölkələri əvvəllər öz qaydaları əsasında idarə edirdilər. Bu qaydalar isə mümkün qədər çox vergi toplamaqdan və başqa dinə mənsub olanlar arasında islam dinini yaymaqdan ibarət idi.

Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı həm xilafət sarayında, həm də onlara tabe olan ölkələrdə kəskin mübarizə gedirdi. Xilafətə qarşı çıxışlar Azərbaycanda 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdilər və onlara yerli feodallar başçılıq edirdilər. Bu, səbəbsiz deyildi. Ərəblər Azərbaycanda möhkəmləndikcə yerli feodalları dövlət aparatından uzaqlaşdırır, onların torpaqlarını, kəndlilər üzərindəki hüquqlarını və digər imtiyazlarını məhdudlaşdırırdılar. Ona görə də feodallar xilafətdən daha çox narazı idilər.

Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün Ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı xürrəmilər hərəkatıdır. Xürrəmilərin şüarı torpağı və digər istehsal vasitələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodalların və digər hakim təbəqələrin asılılığından azad etməkdən ibarət idi.

### *Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə*

Tarixi mənbələrin məlumatına görə, xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Onun üçdə iki hissəsini Babəkə qədərki dövr təşkil edir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra xürrəmilərin hərəkatına onun köməkçisi Babək rəhbərlik edir.

Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi. Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Xürrəmilər Babəkə qədər xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. Daha güclü olan ikinci üsyanda on minlərlə adam iştirak edirdi. Ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı ilə xürrəmilərə qarşı on min atlı göndərildi. Üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar.

Lakin xilafətin amansız cəza tədbirləri xürrəmilərin azadlıq uğrunda mübarizə əzmini məhv edə bilmədi. Onların sırası seyrəlsə də, düşmənə qarşı döyüş təcrübələri zənginləşdi.

Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının miqdarı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Babək orduda ciddi intizam yaratmışdı.

Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr çalaraq Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Ərəb tarixçisi Bağdadın verdiyi məlumata görə, Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı 300 min nəfərə çatırdı.

İşğalçılara qarşı kəskin narazılıq və müqavimət bir çox əraziləri bürüsə də, bütün mənbələr təsdiq edir ki, azadlıq mübarizəsinin əsas mənbəyi Babəkin və xürrəmilərin vətəni Azərbaycan idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. Ərəb tarixçisi Dinəvərinin məlumatına görə, bu zaman “Babəkin işi böyük vüsət aldı və ərəblər ondan qorxmağa başladılar. Onunla vuruşurdular, lakin qalib gələ bilmirdilər. Babək qoşunları dağıdır və sərkərdələri öldürürdü”.

835-ci ildə xəlifə Mötəsim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Ərəblərin xürrəmilərə qarşı mübarizə taktikasını dəyişən Afşin Babəkin tərəfdarları və müttəfiqləri olan yerli feodallar Səhl ibn Sumbatı, ibn Bəisi, Əbu Musanı və onlarla başqalarını öz tərəfinə çəkdi. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönmədi. O, vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi.

Belə olduqda həlledici döyüş labüd idi. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. 837-ci il avqustun 26-da son döyüş başlandı. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə yaralananlardan və itkin düşənlərdən əlavə ərəblərdən 100 min nəfər, üsyançılardan 80 min nəfər həlak olmuşdu. Afşinin göstərişi ilə Bəzz qalası dağıdıldı. Qala müdafiəçilərindən 7600 nəfər əsir götürüldü.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi.

Edam zamanı Babək heyrətamiz mənəvi dözüm göstərdi. Cəllad əvvəlcə onun sağ əlini biləkdən kəsdi. Qan axanda Babək sol əli ilə üzünü qana boyadı. Xəlifə ondan nə üçün belə etdiyini soruşanda Babək bildirdi: “Adamlar elə başa düşərlər ki, mən elə əvvəldən ölümdən qorxmuşam. Mən üzümü qana boyadım ki, bənizim solğun görünməsin”.

### *Xürrəmilər hərəkatının əhəmiyyəti*

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, “Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir”.

Bu mövzunu öyrənərkən bir daha qeyd olunmalıdır ki, Azərbaycan torpaqlarının bir hissəsi hələ də ermənilərin işğalı altındadır. Azərbaycanın müstəqilliyinin bərpa olunmasının ilk illərində ölkədə olan mürəkkəb daxili ictimai-siyasi vəziyyətdən məharətlə istifadə edən ermənilər bəzi xarici dövlətlərin dəstəyi ilə Azərbaycanın əzəli torpaqları olan Qarabağın dağlıq hissəsini və daha 7 rayonu işğal etməyə müvəffəq oldular. Ona görə də bu gün Silahlı Qüvvələrin qarşısında dayanan ən başlıca vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaqdır. Azərbaycan ordusunun hərbi qulluqçusu dərslərdə və təlimlərdə hərb işini vicdanla öyrənməklə yanaşı, öz xalqının qəhrəmanlıq tarixini də bilməli, onlarla fəxr etməli və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə babaların şöhrətli döyüş ənənələrinə yüksək sədaqət nümunəsi göstərməyə hazır olmalıdır.

***İstifadə olunmuş ədəbiyyat: “Azərbaycan tarixi”, Azərnəşr, 1994.***

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# “Gənc Heydərçilər”in əsgər həyatı yaddaqalan oldu





***Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin həyata keçirdiyi birgə layihə çərçivəsində iki həftədir ki, "N" hərbi hissəsində "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsi təşkil edilmişdi. Düşərgədə Səbail rayonundan olan, təhsildə və idmanda fərqlənən, eləcə də xüsusi istedada malik 100 uşaq iştirak edib. Sevindirici hal odur ki, layihənin hərbi hissədə reallaşması şagirdlərə hərbi sahədə daha çox təcrübə qazanmağa zəmin yaradıb. "Gənc Heydərçilər" əsgər kazarmalarından birində yerləşdirilmişdi. Hərbi hissədə xalqımızın ümummilli lideri Heydər Əliyevə, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, ordu quruculuğuna, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Milli Qəhrəmanlara həsr olunmuş stendlər qurulub, günün nizam qaydalarını göstərən təlimatlar asılıb. Məktəblilər düşərgə müddətində zabit və əsgərlərlə ünsiyyət yaradıblar, şəxsi heyətin gündəlik həyat və fəaliyyəti, hərbi hissədəki şərait, döyüş texnikası və silahlarla yaxından tanış olublar. Onların ordu haqqında, əsgər və zabitlər barədə təəssüratları xeyli zənginləşib.***

Düşərgənin hərbi vətənpərvərlik təmayüllü olması nəzərə alınaraq məktəblilər üçün xüsusi geyim və formalar tikilmişdi. Həmçinin şagirdlərə idman ləvazimatları alınaraq hərtərəfli hazırlıq işləri görülmüşdü. Yeniyetmələr düşərgədə gündə 4 dəfə yüksək kalorili yeməklə, təzə meyvə, süd məhsulları ilə təmin olunmuşdular. Şagirdlərin tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və ibtidai-hərbi hazırlıq müəllimləri, həmçinin hərbi hissənin zabitləri, çavuş və əsgərlərdən ibarət qrup məşğul olub. Həmçinin "Gənc Heydərçilər"in Qusar rayonunun görməli yerlərinə, tarixi guşələrinə, eləcə də Quba Soyqırımı Memorial Kompleksinə gəzintisi təşkil olunub.

Nəhayət, iki həftə arxada qaldı. "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinin müddətinin başa çatması münasibəti ilə təntənəli mərasim keçirildi. Mərasim başlamazdan əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyevin hərbi hissədə ucaldılmış büstü önünə əklil və gül dəstələri qoydular. Sonra "Gənc Heydərçilər" iştirakçılar qarşısında düşərgədə olduqları müddətdə öyrəndikləri bilik və təcrübəni nümayiş etdirdilər. İlk olaraq məktəblilər tələb olunan vaxt çərçivəsində əleyhqaz geyindilər. Sonra müxtəlif silahları söküb-yığdılar. Döyüş meydanında qalmış yaralıya ilkin tibbi yardım göstərib xərəkdə tibb məntəqəsinə çatdırdılar. Xüsusi təyinatlıların çıxışı isə hər kəsdə şagirdlərə rəğbət oyatdı. Onlar geniş meydan boyu qaçaraq müxtəlif hərəkətlər nümayiş etdirdilər. Maraqlı fəndlərlə bir-birilərinə güc gəlməyə çalışdılar. Cəld və çevik hərəkətlərindən hiss olunurdu ki, şagirdlər bu vərdişləri mükəmməl mənimsəyiblər.

Sonra düşərgənin şəxsi heyəti sıra meydanında düzüldü. Bağlanış mərasimini "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinin rəisi Faiq Qurbanov açıq elan etdi. Mərasim işirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu. Sonra şagirdləri təbrik etmək üçün çıxışlar başlandı. İlk söz Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərova verildi. O dedi:

- Salam "Gənc Heydərçilər". Sizi bu əlamətdar gün münasibətilə təbrik edirəm. Siz 15 gündür ki, hərbi hissədə təşkil olunmuş hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsində istirahət edirsiniz. Bu, dövlətimizin yeniyetmələrə, gənclərə diqqət və qayğısının bariz nümunəsidir. Ulu öndərimiz Heydər Əliyev həmişə deyirdi ki, gələcək uşaqlarındır, gənclərindir. Ümummilli liderimiz tərəfindən böyük uzaqgörənliklə deyilmiş bu sözlər bu gün öz yerini tutur. Ulu öndərin siyasi irsinin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev də daim uşaqlara, yeniyetmələrə və gənclərə diqqət və qayğı göstərir. Biz bunu həyatımızın hər addımında, fəaliyyətimizin hər anında görürük. Doqquz ildir ki, biz bu layihə istiqamətində uğurlu işlər həyata keçiririk. "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsi Müdafiə Nazirliyi ilə ilk dəfədir ki, həyata keçirilir. Azərbaycan Respublikasının Müdaifə naziri general-polkovnik Zakir Həsənov bu mühüm posta təyin olunandan sonra layihəni reallaşdırdıq. Fikrimiz var ki, növbəti ildə də bu layihəni davam etdirək. Yəqin ki, gələn il şagirdlərin sayı daha da çox olacaqdır.

Əziz "Gənc Heydərçilər". Hiss olunur ki, hərbi hissədə olduğunuz müddətdə vaxtınız, istirahətiniz səmərəli keçib. Tədbirin əvvəlində nümayiş etdirdiyiniz hərəkətlərə baxdıqca ürəyim dağa döndü. Siz qısa müddət ərzində bir çox lazımi bilik və vərdişlərə yiyələnmisiniz. Silahları söküb-yığmağınıza, yaralını döyüş meydanından çıxarmağınıza, əleyhqazı geyinməyinizə tamaşa edən hər kəs zənn edər ki, bəlkə də siz xeyli müddətdir buradasınız. Amma sizin hərbi hissədə olmağınız cəmisi iki həftədir. Bu müddət ərzində nə qədər bilik və döyüş vərdişlərinə yiyələnmisiniz. Sizə bu bilikləri öyrədən zabit və əsgərlərə, həmçinin "Gənc Heydərçilər"ə hərbi hissədə belə gözəl şərait yaratdığına görə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm. Hörmətli məktəblilər, inanıram ki, siz burada keçirdiyiniz günləri həmişə xoş təəssüratlarla xatırlayacaqsınız. Xalqımız, dövlətimiz üçün layiqli vətəndaşlar olacaqsınız.



Müdaifə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Kamran Nəsibov da tədbirdə çıxış etdi. O dedi:

- Hörmətli mərasim iştirakçıları! İştirakçısı olduğumuz bu tədbir hər birimiz üçün müqəddəs və əzizdir. Elə bilirəm ki, hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsi "Gənc Heydərçilər" üçün çox səmərəli və yaddaqalan oldu. Şagirdlərin rahatçılığı üçün hərbi hissənin şəxsi heyəti əlindən gələn hər şeyi etdi. Məktəblilərin hərbi bilikləri, silahları, texnikaları öyrənmələri üçün hərtərəfli şərait yaratmağa çalışdıq. Elə bilirəm ki, biz buna nail olduq. Düşərgədə olduğu müddətdə şagirdlər həm hərbi bilik və vərdişlərə yiyələndilər, həm də əsgərlərin gündəlik həyatı ilə yaxından tanış oldular. Bütün bunlar isə onların dünyagörüşlərinin formalaşmasına müsbət təsir göstərir. Belə hərbi təmayüllü düşərgələrin təşkil olunması çox tədqirəlayiqdir. Çünki bu günün şagirdi sabahın əsgəridir. Deməli, sabahımızın əsgərləri daha hazırlıqlı və bacarıqlı olacaqlar.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şaiq Alxasov, Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova, polkovnik-leytenant Şahin Qəhrəmanov, gənclər və uşaq təşkilatının nümayəndəsi Çingiz Həsənbəyli və başqaları çıxış edərək öz fikirlərini söylədilər, qazandıqları bilik və vərdişlərə görə şagirdləri təbrik etdilər.

Sonra "Gənc Heydərçilər" hərbi mahnı və marşlar ifa edərək tribunanın önündən keçdilər.

Mükafatlandırma mərasimi də yaddaqalan oldu. Düşərgədə olduqları müddətdə keçirilən müxtəlif idman yarışlarında, silahların sökülüb-yığılmasında, eləcə də hərbi təlimlərdə fərqlənən şagirdlərə xatirə medalları, kubok və fəxri fərmanlar verildi. Həmçinin şagirdlərin təlim-tərbiyə işlərinə cavabdeh olan dəstə rəhbərlərinə qiymətli hədiyyələr təqdim olundu. Şagirdlərə mükafatları Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şaiq Alxasov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova, polkovnik-leytenantlar Kamran Nəsibov və Şahin Qəhrəmanov, Təhsil Nazirliyinin nümayəndəsi, ehtiyatda olan polkovnik-leytenant Təranə Məmmədova, Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova və başqaları təqdim etdilər.

Səbail rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov hərbi hissəyə bir ədəd televizor hədiyyə etdi. Məktəblilərə təlimlərin keçirilməsində fəal iştirak edən zabit və əsgərlərə, həmçinin "Gənc Heydərçilər"in qidalanmasında böyük əməkləri olan bir qrup aşpaza qiymətli hədiyyələr verdi.

Mərasimin sonunda tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin büstü önündə xatirə şəkli çəkdirdilər. Bununla da "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinin bağlanışına həsr olunmuş mərasim bağlı elan olundu.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## 21 yaşadək Azərbaycan yığması İsrail komandasını məğlub edib



Sentyabrın 3-də 21 yaşadək futbolçulardan ibarət Azərbaycan yığması Avropa çempionatının seçmə mərhələsi çərçivəsində İsrail komandasını qəbul edib.

AzərTAc xəbər verir ki, "Dalğa Arena" stadionunda komandamız rəqibinə 3:0 hesabı ilə qalib gəlib. Oyunda qollardan birini Ağabala Ramazanov və ikisini isə Rəhman Hacıyev vurub.

Milli komandamız səkkizinci qrupda mübarizə aparır. Yığmamız sentyabrın 9-da qrupun lideri Portuqaliya komandasının qonağı olacaq.

## Millimiz Beynəlxalq Ardeşen Offroad yarışlarında birinci olub



Türkiyənin Rizə vilayətinin Ardeşen rayonunda üçüncü Beynəlxalq Ardeşen Offroad yarışları başa çatıb.

Azərbaycan Avtomobil Federasiyasından AzərTAc-a bildiriblər ki, Offroad milli komandamız - pilot Azər Abıyev və şturman Vaxtanq Sakhokia S2 kateqoriyasında birinci yeri, ümumi yarışlarda isə ikinci yeri tutub.

Xatırladaq ki, avqustun 30-31-də keçirilən üçüncü Beynəlxalq Ardeşen Offroad yarışlarında Azərbaycan, Türkiyə, Gürcüstan, İran və Ermənistandan 100-dək idmançı iştirak edib.

## Paralimpiyaçıların Azərbaycan çempionatının qalibləri müəyyənləşib



Milli Paralimpiya Komitəsi tərəfindən "Maneəsiz həyat" layihəsi çərçivəsində güllə atıcılığı üzrə paralimpiyaçıların ikinci açıq Azərbaycan çempionatı keçirilib.

AzərTAc xəbər verir ki, Sumqayıt Paralimpiya İdman Kompleksində təşkil olunan və 30 idmançının qatıldığı yarışda kişilərin mübarizəsində paralimpiyaçı Kamran Zeynalov 571 xalla qızıl, onun komanda yoldaşı Əkbər Muradov 559 xalla gümüş, Zakir Beytulov isə 556 xalla bürünc medal qazanıblar.

## Azərbaycan millisi Rusiya komandasına qalib gəlib



İtaliyada keçiriləcək dünya çempionatına hazırlaşan qadın voleybolçulardan ibarət Azərbaycan millisi növbəti yoxlama oyununu keçirib. AzərTAc xəbər verir ki, millimiz ölkəmizdə hazırlıq keçən Rusiyanın "Uraloçka" komandası ilə üçüncü oyununa çıxıb.

Komandamız yenə rəqibindən güclü olub. İlk iki oyunda rəqibini 3:0 hesabı ilə məğlub edən millimiz bu dəfə də Rusiya kollektivindən üstün olub - 3:1.

## "Qarabağ"ın çempionluq kuboku ağdamlı futbolsevərlərə təqdim olundu



Topaz Premyer Liqasında 2013-2014-cü il mövsümünün çempionu olan "Qarabağ" klubunun rəhbərliyi, məşqçi və futbolçuları Ağdam rayonunda olublar.

AzərTAc xəbər verir ki, Quzanlı qəsəbəsindəki Olimpiya İdman Kompleksinin stadionunda ağdamlılar doğma klublarını sürəkli alqışlarla qarşıladılar.

Yeni nailiyyətlər qazanmaq üçün daha da çox çalışacaqlarını bildirən "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov Qarabağın tezliklə işğaldan azad edilməsini və görüşlərin orada keçirilməsini arzuladı.

Sonra çempionluq kuboku futbolsevərlərə təqdim olundu.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

## "Himalay" yeni radioelektron stansiyası

Stavropolun "Siqnal" radio zavodunun baş direktoru Aleksandr Loqvinovun verdiyi məlumata görə, yaxın vaxtlarda müəssisə tərəfindən T-50 qırıcıları üçün yeni "Himalay" radioelektron mübarizə sistemi təqdim ediləcək. Agentliyin məlumatına görə, 5-ci nəsildən olan T-50 qırıcılarının istehsalına 2016-cı ildə başlanılacaq. Radioelektron mübarizə stansiyası layihənin əsas elementlərindən biri sayılır. T-50 qırıcıları üçün onların ilk sınağı keçən qış olub.

## "Qripen E" proqramı üzrə irimiqyaslı işlərə başlanılıb

Hazırda "Saab" şirkətinin bütün bölmələri yeni "Qripen E" çoxməqsədli qırıcının hazırlanması üzrə layihə üzərində işə başlayıblar. Cədvəl üzrə bu il "Qripen E" təyyarəsi üçün müxtəlif komponentlər hazırlanacaq. 2015-ci ildə 39-8-in sınaq uçuşları həyata keçiriləcək. 2018-ci ildə ilk təyyarə hazırlanacaq.

Proqram çərçivəsində İsveçrənin HHQ-nin silahlanması üzrə cəmi üç müqavilə baglanıb və müqaviləyə əsasən ilk maşınlar sifarişçiyə 2018-ci ildə təqdim ediləcək.

## Yeni Zelandiya üçün PLO SN-2G vertolyotu

Bu yaxınlarda "Kaman" şirkəti Blumfildə PLO SN-2G "Super Sisprayt" vertolyotunun sınağının keçirilməsini elan edib. Sınaqlar başa çatdıqdan sonra bu maşınlar Yeni Zelandiyanın hərbi-dəniz qüvvələrinin öyrənilməsi üçün istifadə olunacaq. Bu şirkət 2013-cü ildə Yeni Zelandiyanın HDQ üçün 10 ədəd gəmi əleyhinə SN-2G "Super Sisprayt" vertolyotunun, ehtiyat hissələrinin, trenajorların və uyğun maddi-texniki təminat vasitələrinin hazırlanması üzrə 120 milyon dollar həcmində müqavilə bağlayıb. Bu ilin sonuna qədər üç vertolyotun ayrılması planlaşdırılıb.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

# Sıra meydanında musiqi sədaları






***"N" hərbi hissəsində təşkil olunmuş "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsində iştirak edən şagirdlər, yəqin ki, keçirdikləri bu xoş günləri heç vaxt yaddan çıxarmayacaqlar. Onlar iki həftə ərzində bir çox maraqlı hadisələrin şahidi və iştirakçısı oldular. Məktəblilər sanki bu günlər bir əsgər həyatı yaşadılar. Silahların sökülüb-yığılmasını öyrəndilər, müxtəlif silahlardan hədəflərə atəş açdılar. Texnikanın yürüşünü seyr etdilər, təlimləri yaxından izlədilər. Təbiidir ki, bütün bunlar onların yaddaşında dərin izlər saldı.***

Hərbi təmayüllü düşərgənin başa çatması ərəfəsində məktəblilər üçün konsert proqramı təşkil olundu. "Gənc Heydərçilər" daha bir xoş gün yaşadılar.

Biz hərbi hissənin ərazisinə daxil olanda sıra meydanında böyük canlanma var idi. Texniki avadanlıqlar quraşdırılır, müğənnilər çıxışa hazırlaşırdılar. Çox keçmədi ki, düşərgə iştirakçıları üçün hazırlanan konsert başladı. İlk olaraq dahi Üzeyir Hacıbəyovun "Koroğlu" uvertürası səsləndi. Mərasimi Sumqayıt şəhərində fəaliyyət göstərən "Dünya" televiziyasının aparıcısı Əminəxanım Tərlanqızı açıq elan edib iştirakçıları salamladı. Sonra "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay düşərgəsinin rəisi Faiq Qurbanov, Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova, polkovnik-leytenant Kamran Nəsibov və başqaları çıxış edərək şagirdlərə öz ürək sözlərini dedilər.

Sumqayıt şəhər Mədəniyyət Evinin ansamblının solistləri maraqlı musiqi nömrələri ilə mərasim iştirakçıları qarşısında çıxış etdilər.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının rəisi polkovnik-leytenant Zöhrab İmamquluyev də mərasim iştirakçıları qarşısında çıxış edərək onlara uğurlar arzuladı. Onun rəhbərlik etdiyi ansamblın müğənniləri bir-birindən gözəl mahnılar ifa etdilər. Müğənnilərdən xalq artisti Zaur Rzayevin, Elçin Məmmədovun, Samirə Sadıqovanın və Leyla Vahidqızının ifa etdiyi mahnılar iştirakçılar tərəfindən alqışlarla qarşılandı.

Hava qaralan kimi "Gənc Heydərçilər" tonqalı alovlandırdılar. Alovlanan tonqal ətrafı daha da işıqlandırdı. Məktəblilər əllərində üçrəngli bayraqlarımızı tutaraq tonqalın ətrafında rəqs etməyə başladılar.

"Gənc Heydərçilər" tonqalın işığında onlar üçün hazırlanmış böyük tortu kəsdilər.

Musiqi sədaları ara vermirdi. "Gənc Heydərçilər" böyük sevinc içində həyatlarının xoş anlarını yaşayırdılar…

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 287
Nüsxə 4570